**G.M.BAĞIROVA**
*e-mail: gulsenbagirova0202@gmail.com*
**:https://orcid.org/0009-0002-9818-1067**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.3.278**

# EMİL AJARIN "PSEVDO" ROMANINDA PARÇALANMIŞ KİMLİK PROBLEMİ

***Xülasə.*** *Məqalədə Roman Qarinin Emil Ajar təxəllüsü ilə yazdığı "Psevdo" romanında kimlik parçalanması fundamental identiklik problemi kimi təqdim olunur. Müəllif çoxqatlı və parçalanmış "mən" strukturu vasitəsilə fərdi kimlik böhranının həm psixoloji, həm də ekzistensial səviyyələrini təsvir edir. Dil, mədəniyyət və irsiyyət kimi determinativlər fərdin kimliyinin formalaşmasına mane olur. Romanda Emil-Paul-Roman identliklərinin qarşılıqlı əlaqəsi və müxtəlif kimliklərin eyni zamanda mövcudluğu fərdi kimliyin çoxölçülülüyünü və parçalanmışlığını ironik şəkildə əks etdirir.*

***Açar sözlər:*** *kimlik problemi, identiklik böhranı, dil və mənsubluq, sosial təzyiq, psixoloji gərginlik*

Roman Qarinin Emil Ajar təxəllüsü ilə qələmə aldığı avtobioqrafik-fantastik roman janrına aid edilən "Psevdo" əsərində kimlik parçalanması problemi Emil-Paul-Roman obrazının parçalanmış və təkrarlanan identiklik təcrübəsi ilə təqdim edilir. Müəllifin təhkiyəçi obrazda təcəssüm etdirdiyi çoxqatlı "mən" strukturu yalnız fərdi identiklik böhranının deyil, həm də bu böhranın psixoz səviyyəsində təzahürünün göstəricisinə çevrilərək təkcə süjetin ideya-estetik xəttini deyil, eyni zamanda romanın təhkiyə quruluşunu da müəyyən edir.

Dil və onun yaratdığı mədəniyyətə mənsubiyyət, genetik ötürülən xarakterik xüsusiyyətləri, eləcə də patriarxal dəyərlər tərəfindən müəyyənləşdirilən kökə bağlılıq kimi amillər insanın "özü olma" imkanını ciddi şəkildə məhdudlaşdıran əsas faktorlar kimi nəzərə çarpır. Məhz bu səbəbdən əsərin təhkiyəçisi "varlıqdan azad olmaq" arzusuna qapılır; Emil Ajar kimliyinin üzə çıxmaması üçün Paul Pavloviçin davamlı şəkildə özünü gizlətmək cəhdləri mənsubiyyət hissindən qaçışın ifadəsi olaraq roman boyu paralel şəkildə inkişaf etdirilir.

Azadlıq bir tərəfdən, insanın özünü reallaşdırması üçün zəruri olan şəraiti və vasitələri təmin edən əsas anlayış, "digəri"nin mövcudluğu fonunda özünüqavrayış və özünüdərk prosesinin formalaşdığı mühüm fəza olsa da, digər tərəfdən fərdin daxil olduğu, müəyyən norma və dəyərlər əsasında bərqərar olmuş donuq cəmiyyət strukturu ilə "özün olma" prosesini həm problematik, həm də demək olar ki, mümkünsüz hala gətirən amil kimi diqqət çəkir. Bu kontekstdə təhkiyəçinin azad mühitdə etdiyi seçimlər, həyata keçirdiyi davranışlar və kimlik saxtakarlıqları ilə yanaşı, cəmiyyətin tətbiq etdiyi sosial təzyiq, normativ sanksiyalar və məcburi uyğunlaşma mexanizmləri də fərdin "özü olma" imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Saxtakarlığın dominant davranış modelinə çevrildiyi və ikiüzlülüyün norma kimi qəbul edildiyi belə bir mühitdə fərdin öz kimliyini qoruyaraq yaşaması faktiki olaraq mümkünsüzləşir.

Roman, eyni zamanda, "normallıq" anlayışını sorğulamaqla cəmiyyətə uyğunlaşmaqdan imtina edən fərdlərin psixi pozuntuya məruz qalmış kimi damğalanaraq psixiatrik müəssisələrə yerləşdirildiyi reallığı ifşa edir.

Adını Emil Ajar olaraq dəyişdikdən sonra R.Qari hadisələri kənardan müşahidə etməklə kifayətlənir və vəziyyətdən zövq almağı üstün tutur. Tədqiqatçı M.Dequle qeyd edirdi ki, "Qari fenomeni ədəbiyyat tənqidçilərinin canlı-canlı torpağa basdırdıqları və ona geyindirdikləri dəlilik köynəyini ictimaiyyətin gözləri önündə ifşa edir və özünü yenidən diriltmək üçün yalana əl atmaqdan başqa çıxış yolu tapmır" [3, s. 4].

"Həyat hələ qabaqdadır" romanını Emil Ajar adı ilə nəşr etdirən R.Qari daha sonra romanı həqiqətən də Emil Ajar olduğunu iddia edən Paul Pavloviçin adı ilə çapı etdirir. Qonkur mükafatına layiq görülən əsər Fransa mediasında böyük əks-səda doğurur və bu R.Qarini ciddi şəkildə narahat edir. Yalanının ifşası onun nüfuzunu zədələyə bilərdi, çünki Qonkur mükafatı Fransada bir yazıçıya yalnız bir dəfə verilirdi və eyni müəllifin onu saxtakarlıqla ikinci dəfə qazanması ədəbi mühitdə skandalla nəticələnə bilərdi.

"Psevdo" romanı da məhz mövcud kontekstə əsaslanaraq meydana çıxır: Ajar fenomeni mətn içində mətn texkinası ilə mətnin daxilində gizlədilir. Beləliklə, Roman Qari / Emil Ajar dualizmi üzərindən qurulan bədii mətndə kimlik problemi ön plana çəkilir; müəllif bir tərəfdən fərd olaraq mövcudluğunu sorğulamağa açıq qapı buraxır, digər tərəfdən isə romana fəlsəfi mahiyyət qazandırır [2, s. 79]. Romanın ilk cümləsi bu fəlsəfi ölçü ilə oxucunu qarşı-qarşıya qoyur: "Başlanğıc deyilən bir şey yoxdur. Hər kəs kimi növbəm çatanda mən də doğuldum, o vaxtdan bəri də mənsubluq axtarışındayam" [4, s. 5].

Mənsubluq anlayışı insanın dünyada mövcudluğuna dair iradəsinin təsirsizliyinə işarə etməklə yanaşı, insanın "özü" olmasına imkan verməyən genetik və irsi faktorlarla müəyyənləşdiyinə də diqqət çəkir. Bu fikir romanda belə ifadə olunur: "Məni mən yaratmamışam; bu işdə ata-ana, irsiyyət, alkoqolizm, beyin sklerozu və bir qədər də dərindən baxanda vərəm və şəkər xəstəliyi var... Həmçinin dərimlə bağlı problemlərimin olduğu da doğrudur, çünki bu dəri mənim deyil; mənə irsən keçib" [4, s. 7-9].

P.Bayarın da vurğuladığı kimi, burada bəhs olunan mənsubluq yalnız genetik deyil, eyni zamanda dilə mənsubluq mənasında da başa düşülməlidir. Belə olan halda "Başqalarına məxsus sözlərlə qarşılaşmaq və özünü orijinal formada ifadə edə bilməmək" [1, s. 113] yazıçının əzabına çevrilir: "Özünüzdən qorunun. Düşmən sözlər sizi dinləyir. Hər şey öz rolunu oynayır. Heç nə həqiqi deyil, biz öz-özümüzün müəllifi, öz-özümüzün əsəri olmadığımız müddətcə heç nə həqiqi olmayacaqdır" [4, s. 59].

Kimlik problemi insanın mövcudluq səviyyəsində özünəməxsusluğunu sorğuladığı kimi, R.Qarinin yazıçı kimliyi əsasında ədəbiyyatda müəlliflikdə orijinallıq məsələsini toqquşdurur. Hər iki sahədə həm varlıq, həm müəlliflik səviyyəsində qarşılaşdırılan bu orijinallıq problemi R.Qari tərəfindən bədii mətn daxilində simvolik və ustalıqla kodlaşdırılmış şəkildə təqdim olunur. Yazılı ədəbiyyatın intertekstual əlaqələr çərçivəsində müzakirə olunan orijinallıq problemi A.P.Bernardın da qeyd etdiyi kimi əsərin əsas tematik laylarından birini təşkil edir [2, s. 78].

Əsərin əsas problematikası kimlik parçalanmasına əsaslansa da Qarinin tədqiqatçıları, xüsusilə də F.Lorandini bu parçalanmanın əslində kimlik çoxluğundan qaynaqlandığını vurğulayırlar [6, s. 40]. Belə ki, romanda təqdim olunan parçalanmışlıq fərqli kimliklərin paralel mövcudluğu şəklində ortaya çıxır. Bu kimlik çoxluğu əsərdəki uydurma kimliyin etirafı ilə birbaşa əlaqəlidir.

Əsər boyu Paul Pavloviçin nevrotik halları, Paul Pavloviç-Emil Ajar-Roman Qari arasındakı kimlik çoxluğu süjetin və identifikasiya sisteminin mürəkkəbliyini daha da artırır. Bu parçalanmış kimlik strukturu daxilində "digər"inə yer ayrılmadığı üçün, fərd öz kimliyini başqası üzərindən qurmaq imkanından da məhrum qalır. Çünki əsərdə müxtəlif adlarla təqdim

olunan bu kimliklər əslində tək bir fərddir və belə olan halda o, nə özünü başqası vasitəsilə inşa edə bilir, nə də gizlədə bilir.

Təhkiyəçinin özünü gizlətmək üçün dəli kimi davranması əsərdəki psixoloji gərginliyi daha gücləndirir: "Əgər rol oynamasanız cəmiyyətə uyğunlaşmadığınız deyilir, ya uyğunsuz damğası vurulur, ya da əsəbi xəstə" [4, s. 6]. Hətta əsərin bir epizodunda polis təhkiyəçiyə "Heç olmasa dəli kimi davran. O zaman səni rahat buraxarıq" [4, s.15] deyir. Lakin müəllif bu "şizofrenik halların" gerçək psixi pozuntu olub-olmadığını bilərəkdən qeyri-müəyyən saxlayır. Bu şübhə oxucunu həm metamətn oyunu, həm də epistemoloji suallarla qarşı-qarşıya qoyur.

Təhkiyəçinin parçalanmış psixoloji durumu, onun özündən qaçmaq səylərinin həm təşəbbüskarı, həm də müşayiətçisinə çevrilir; bu isə identiklik çərçivəsində "mənliyinin" formalaşmasının qarşısını alır və nəticə olaraq "özü olmaq" imkanını əngəlləyir: "Özümü dözülməz hiss edirəm. Bir cinayətdən digərinə keçən, işgəncə altında ölmüş, işgəncə görən və edən, əzən və əzilən, təqib edən və təqib olunan, ilan və ov halında hiss edirəm; ikiyə bölünürəm, şizofrenəm; eyni anda həm məhv olmuş, həm də məhv edən oluram. O zaman xəstə, zorba, dindar və islahatçı meyillərə qapılır, ətrafımı psixiatrlar və ruhi xəstə gödəkçələri ilə əhatələnmiş hiss edirəm" [4, s. 122].

Xüsusilə, Makot dayı ilə təhkiyəçinin dialoqlarda bir-birlərinə fərqli adlarla (Aleks, Lyudovik, Valentin və s.) müraciət etmələri qarşılıqlı bir aldatma oyununun göstəricisidir. Bu hal, P.Bayardın da vurğuladığı kimi, Qarinin əsərdə sadəcə kimlik problemi olan bir qəhrəman yaratmaqla kifayətlənmədiyini, eyni zamanda parçalanmışlıqla əlaqəli olaraq gerçəkliklə bağlarını itirmiş və ya qoparmış bir obraz yaratdığını göstərir [1, s. 111-112].

Gerçəkliyin oyuna çevrildiyi əsərdə R.Qari həm müəyyən bir dilə və həmin dilin yaratdığı mədəniyyətə mənsubiyyətdən, həm də genetik mirasla müəyyənləşmiş təsirlərdən, kökə, kimliyə aid olmaqdan qurtula bilməməyi və bujna bağlı olaraq kimlik parçalanmasını təsvir edir: "İçimdə toqquşan iki şəxsiyyət vardı: olmadığım şəxsiyyətlə olmaq istəmədiyim şəxsiyyət… əsl "mən"i bir az daha azalda bilmək üçün hər gün yeni şəxsiyyətlər uydurmağa başladım" [4, s. 119].

Bunu "bölünməzlik" anlayışı ilə izah edən P.Bayard mədəni-dlinqvistik bölünməzlikdən faktını vurğulayır [1, s. 113]. "Olmadığı şəxsiyyət" ilə "olmaq istəmədiyi şəxsiyyət" arasında yaranan qarşıdurma, identiklik prinsipinin, yəni özün olmanın təməlini təşkil edən daxili harmoniyanın yaranmasına imkan vermir. Bu iki şəxsiyyətin toqquşması sonda "olmaq istəmədiyi şəxsiyyət olmaq"la nəticələnir ki, bu da ironik şəkildə "yox olmaq" (özünü tamamilə itirmək) kimi faciəvi sonluğu labüd edir.

Nevrotik obrazın şüuru vasitəsilə cəmiyyətin ikiüzlülüyünü və riyakarlığını ifşa edən "Psevdo" əsərinin motivləri yalnız cəmiyyətin ikiüzlülüyünü deyil, həm də fərqliliyə, müstəqil düşüncəyə, öz istəkləri ilə hərəkət edən subyektlərə qarşı dözümsüzlüyünü də ifşa edir.

Cəmiyyətin düşünməyən, yalnız əmrə tabe olan, robotlaşdırılmış, verilmiş rolları oynamaqla kifayətlənən insan yetişdirmə səyləri qarşısında özünə yadlaşma təqlidi bir növ müdafiə strategiyası kimi çıxış etsə də eyni zamanda fərdin özü kimi olmasına maneə törədir. Əsərin təhkiyəçisinin xatirələrindən danışdığı zaman bu daha bariz şəkildə ifadə olunur: "Ara-sıra Café de la Gare"da dostlarla toplaşardıq. Biri santexnik, biri mühasib, biri də məmur idi. Əslində nə santexnik, nə mühasib, nə də məmur idilər, əlbəttə. Tamamilə fərqli idilər. Amma kimsə bunun fərqində deyil; rol oynayırlar, gündə səkkiz saat oyun oynayırlar, beləliklə, kimsə onlara toxunmur. Özlərinə qapanıb orada gizli həyat sürürlər, ancaq gecələr, yuxularında və qarabasanlarında ortaya çıxırlar" [4, s. 15].

Sitatdan da göründüyü kimi cəmiyyət fərdin öz kimliyini yaşamasına mane olur, onları saxta rollar oynamağa məcbur edərək psixoloji olaraq çökmüş insana çevirir. Bu insanlar eyni zamanda ruhi sağlamlığını itirmiş insanlardır. Romanın təhkiyəçisi də məhz bu rol oynaya bilmədiyi, cəmiyyətin diqtə etdiyi normalara uyğunlaşmadığı üçün psixiatriya klinikasında yatır.

Belə olan halda kimin normal olduğuna dair sual yaranır. Kim normaldır? –Cəmiyyət içində rol oynayanlar, yoxsa oynaya bilməyib ruhi xəstəxanaya yerləşdirilənlər? Bu mübahisə

kontekstdə R.Qari gerçək və yalan arasındakı sərhədi də sorğulayır; beləliklə, yalanın da müəyyən mənada gerçək ola biləcəyini, əksinə, gerçək hesab edilənin də bir yalan ola biləcəyini sezdirirvə bunu "Həqiqi bir şey deyə bilmək üçün daim tərsinə danışıram" [4, s. 98] fikri ilə ifadə edir.

Bütün bunların ən təhlükəli tərəfi isə insanı getdikcə "kütlə insanı"na çevirməsidir. Kütlə insanı artıq kimliyindən məhrum edilmiş, varlığının məsuliyyətini daşımaq gücündə olmayan, onu yaşamağa yönəldən imkanlardan istifadə etməyi bacarmayan insandır. "Psevdo" romanında təhkiyəçi təkidlə vurğulayır ki, uyğunlaşmaq kütlə insanının ən aparıcı xüsusiyyətidir. Lakin bu uyğunlaşma harmonik uyğunluq deyil; burada söhbət toplu şəkildə düşünməkdən, qərar verməkdən və hərəkət etməkdən gedir.

E.İonesko "Kərgədanlar" pyesində bunu belə ifadə edir: "Ən hiyləgər olanlar, hadisələrlə ayaqlaşa bilənlər uğur qazanır. Axına qarşı üzmürlər. Beləliklə, daim qazanan olurlar. Qazanc əldə edirlər, lakin yaşamırlar; özləri ortada yoxdur, axının içində əriyirlər, öz formaları yoxdur. Kimisi üçün yaşamaq asandır – idarə olunmaları yetərlidir" [5, s. 142].

E.İoneskonun təqdim etdiyi bu kütlə insanı ilə R.Qarinin "rol oynayan" insanı arasında mahiyyət etibarilə fərq yoxdur. Əksinə, hər ikisi təkcə özlərini yox, bənzəməyə çalışdıqları başqalarını da məhv edirlər.

A.P.Bernhard "Pesvdo" romanını təhlil edərək qeyd edir ki, R.Qari romanda "Fərdi kimliyimizlə sosial kimliyimizi uzlaşdırabiləcək bir kimliyi necə yarada bilərik" [2, s. 82] sualına cavab axtarmağa çalışır. Sosial kimliyin təzyiqi altında fərdi kimliyin qorunmasının mümkünsüzlüyü bir yana, romanı bürüyən müəllif kimliyinin xaosu da bu problemi daha da çətinləşdirir. Emil-Paul qarşıdurması əsasında formalaşan bu mürəkkəblik "Roman" kimliyinin də daxil olması ilə yeni kimlik matrisinə çevrilir. Bunun nəticəsində, avtobioqrafik əsərlərin əsas təhkiyə subyekti olan "Mən" üç yerə parçalanır.

Parçalanmış "mən"lərin yaratdığı kimlik problemi ilə ifşa olunmaq qorxusu birləşdikdə təhkiyəçi daim yalanı davam etdirən davranış modellərinə müraciət edir. Beləliklə, R.Qarinin "yox olanın varlığı" (une présence d'absence) adlandırdığı mənzərə ortaya çıxır. Bu varlıq forması bir "mən" üçün oyuna, digəri üçün gerçəkləşdirilə bilməyən kimliyə, başqa biri üçün qüsur, naqislik və özünü təkrar-təkrar yarada bilməməyin səbəb olduğu ruhi sarsıntıya çevrilir.

Çünki R.Qari olmaq istəmədiyi şəxsiyyətlə mübarizə aparmaq üçün yaratdığı "xəyali obraz" ilə sonda özü də olmaq istəmədiyi şəxsə çevrilir. Beləliklə, bu varlıq mübarizəsi, əslində mövcud olmamaq savaşına çevrilir. Qurduğu oyun artıq R.Qarinin iradəsindən kənara çıxır, gerçəkliyi zədələyir və gerçəklik parçalandıqca onun "özü olma" ehtimalı da yox olur.

Fərdin "özü" olması üçün vacib amillərdən biri kimi təqdim olunan azadlıq, onun özünü tanımasına və mənlik şüurunun formalaşmasına vasitəçilik edən "başqası" ilə münasibəti, eləcə də fərdin doğulub böyüdüyü sosial vərdişlər sistemi, cəmiyyətin sərt normaları və institusional qaydaları insanın özü olması qarşısında əsas maneələr kimi ortaya çıxır. Sosial strukturların sərtliyi və mədəniyyətin qəlibləşdirici gücü insanı öz fərdi kimliyindən uzaqlaşdıraraq, onu ictimai "rol oynama"ğa məcbur edir.

***Nəticə:*** Beləliklə, həm fərdi, həm də kollektiv kimliyin təhlili baxımından diqqətəlayiq əsər olan "Psevdo" romanında özünü tapmağa çalışan fərd, daxili psixoloji parçalanma ilə xarici sosial təzyiqlərin kəsişməsində nə tamamilə gerçək, nə də bütövlükdə yalan bir mənlik formalaşdıra bilir. Onun mövcudluğu "olmamağa çalışan bir varlıq" kimi ortaya çıxır və bu da J.P.Sartrın təsvir etdiyi "özünü inkar edən varlıq" konsepsiyası ilə səsləşir.

***Tədqiqatın elmi yeniliyi:*** Tədqiqat "Psevdo" romanında kimlik problemini çoxqatlı identlik, dilə mənsubluq və psixoloji parçalanma aspektindən təhlil edərək kimlik parçalanması probleminə yeni nəzəri yanaşma təqdim edir. Yazıçı kimliyinin intertekstual müstəvidə orijinallıq problemi ilə toqquşması təhlil edilir, çağdaş ədəbiyyatda kimlik saxtakarlığının və mənsubluqdan qaçışın elmi-nəzəri aspektləri tədqiq olunur.

***İşin tətbiqi əhəmiyyəti:*** Məqalə ədəbiyyatda kimlik problemlərinin təhlilində yeni yanaşmalar təqdim etməklə bədii mətnlərin identik və epistemoloji oxunuşuna metodoloji töhfə verir. Əldə olunan qənaətlər həm ədəbiyyatşünaslıqda, həm də mədəniyyət və psixologiya sahəsində aparılan kimlik yönümlü araşdırmalar üçün faydalı ola bilər. Eyni zamanda, əsərin struktur və ideya-estetik təhlili ali məktəblərdə müasir ədəbiyyat kurslarında tədris materialı kimi istifadə oluna bilər.

### Ədəbiyyat


1. Bayard, P. Il était deux fois Romain Gary / P.Bayard, – Paris: Presses Universitaires de France. – 1990, – 128 p.
2. Bernhard, A.P. La Conception de Pseudo ou l'Ubiquité Garyenne. Romain Gary et la pluralité des mondes, sous la direction de Mireille Sacotte / A.P.Bernhard, – Paris: Presse Universitaires de France. – 2002. – p. 75-85.
3. Degoulet, M. Etude sur La vie devant soi, Emile Ajar/Romain Gary / M.Degoulet, –Paris: Ellipses. – 2008. – 108 p.
4. Gary, R. Pseudo / R.Gary, – Folıo. – 2004, – 240 p.
5. Ionesco, E. Rhinocéros / E.Ionesco, – Paris: Gallimard, Collection Folio, – 1959. – 180 p.
6. Lorandini F. "On est toujours piégé dans un je ". Le choix autobiographique de Gary-Ajar., Tangence, n 97, pp. 25-44, Automne 2011 [en ligne], disponible à l'adresse: https://doi.org/10.7202/1009127ar, consulté le 18/10/2021.


**G.M.Baghirova**

### The Problem of Fragmented Identity in Emile Ajar's Novel "Pseudo"

***Summary***

The article presents the fragmentation of identity as a fundamental identity problem in the novel "Pseudo" by Roman Garin, written under the pseudonym Emil Ajar. The author describes both the psychological and existential levels of the individual identity crisis through the multilayered and fragmented structure of the "I". Determinants such as language, culture and heredity hinder the formation of an individual's identity. The interrelation of the Emile-Paul-Romain identities and the simultaneous existence of different identities in the novel ironically reflect the multidimensionality and fragmentation of individual identity.

***Keywords:*** *identity problem, identity crisis, language and belonging, social pressure, psychological stress*

**Г.М.Багирова**

### Проблема фрагментированной идентичности в романе Эмиля Аджарина «Псевдо»

***Резюме***

В статье рассматривается фрагментация идентичности как фундаментальная проблема идентичности в романе «Псевдо» Романа Гарина, написанном под псевдонимом Эмиль Аджар. Автор описывает как психологический, так и экзистенциальный уровни кризиса индивидуальной идентичности через многослойную и фрагментированную структуру «Я». Такие детерминанты, как язык, культура и наследственность, препятствуют формированию индивидуальной идентичности. Взаимосвязь идентичностей Эмиля–Пауль–Романа и одновременное существование различных идентичностей в романе иронично отражают многомерность и фрагментированность индивидуальной идентичности.

***Ключевые слова:*** *проблема идентичности, кризис идентичности, язык и принадлежность, социальное давление, психологический стресс*

*Rəyçi: f.e.d., prof. Ə.M.Zeynalov*

*Redaksiyaya daxil olub: 31.07.2025*